# Səyyar görüş-qəbullarda əsil dövlətçilik mövqeyi nümayiş etdirilir

***Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev mütəmadi olaraq rayonun qəsəbə və kəndlərində əhali ilə görüşür, vətəndaşların problemləri və onları narahat edən məsələlərlə yaxından tanış olur.***

***Keçirilən səyyar görüş-qəbullarda qaldırılan problemlər təhlil edilir, həlli yolları axtaraılır, aradan qaldırılması üçün tədbirlər həyata keçirilir və icrası nəzarətə götürülür.***

## Məmmədağalı kəndi



Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin rayonun Məmmədağalı kəndində görüş-qəbulu keçirilmişdir.

Tədbirdə rayon icra hakimiyyətinin məsul işçiləri, hüquq mü-



hafizə orqanlarının, xidmət təşkilatlarının rəhbərləri, kənd ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Görüş-qəbulda rayon icra hakimiyyətinin başçısı yerlərdə görülmüş işlərlə yaxından tanış olmaq, əhalini narahat edən problemləri daha dərindən öyrənmək üçün səyyar qəbulların çox əhəmiyyətli olduğunu diqqətə çatdırmışdır.

RİH başçısı ölkədə və rayonda, o cümlədən hər bir yaşayış məntəqəsində həyata keçirilən abadlıq-quruculuq işləri barədə kənd sakinlərinə məlumat vermişdir.

Sakinlərdən Cəbrayıl Məmmədov, Bayram Kərimov, Araz Məmmədov, Leyla Əliyeva və başqaları çıxış edərək ölkəmizdə və rayonumuzda həyata keçirilən abadlıq-quruculuq işlərinə görə ölkə Prezidenti İlham Əliyevə minnətdarlıqlarını bildirmişlər.

Onlar eyni zamanda kəndlilərə, məhsul istehsalçılarına göstərilən böyük maddi və mənəvi dəstəyə görə ölkə başçısına minnətdarlıqlarını ifadə etmişlər.

Tədbir iştirakçıları kəndə təbii qaz xəttinin çəkilməsinə, Vəndam-Seyidqışlaq-Məmmədağalı yolunun asfaltlaşdırılmasına, işıq xətlərinin yenilənməsinə, içməli su təminatının yaxşılaşdırılmasına köməklik göstərilməsini xahiş etmişlər. Görüş-qəbulda fərdi xarakterli xahişlər də səslənmişdir.

Kənd sakinlərinin qaldırdıqları məsələlərin həlli ilə bağlı RİH başçısı tərəfindən müvafiq tədbirlər müəyyənləşdirilmişdir.

**Qüdrət SƏMƏDOV,**
**«Qəbələ»**

## Çarxana kəndi

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev növbəti dəfə rayonun Çarxana



kəndində vətəndaşlarla görüşmüşdür.

Görüş-qəbulda RİH-nin məsul işçiləri, aidiyyəti idarə və müəssisələrin rəhbərləri, kənd ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Görüşü giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı sosial-iqtisadi sahədə həyata keçirilən layihələrin nəticəsində bütün sahələrdə əsaslı dönüş yarandığını, ölkəmizdə əhalinin maddi rifahının yaxşılaşdırılması istiqamətində müntəzəm olaraq zəruri addımların atıldığını bildirmişdir. O, ölkədə görülən işlərin fonunda rayonumuzda yeni məktəb binalarının tikildiyini, müasir tipli parkların salındığını, yolların asfaltlaşdırıldığını, qaz xətlərinin çəkildiyini, elektrik təsərrüfatında təmir işlərinin aparıldığını və digər sosial quruculuq və abadlıq işlərinin həyata keçirildiyini diqqətə çatdırmışdır.

Natiq bütün bunların ulu öndər Heydər Əliyev siyasətini uğurla davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin səmərəli fəaliyyətinin nəticəsi olduğunu qeyd etmişdir.

Qəbələdə aqrar sektorun genişləndirilməsi və inkişafı üçün münbit şəraitin olduğunu qeyd edən RİH başçısı strateji əhəmiyyətə malik kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına əhalinin diqqətinin daha da gücləndirilməsinin vacibliyini bildirmişdir.

Görüş-qəbulda iştirak edən kənd sakinləri rayonumuzda aparılan geniş abadlıq və quruculuq işlərinə göstərdiyi qayğıya görə Prezident İlham Əliyevə razılıqlarını ifadə etmiş, ölkə başçısının qəbələlərə bəslədiyi münasibəti və diqqəti yüksək qiymətləndirmişlər.

Çıxış edənlərdən Bayram Əli-



yev, Əliyar Hüseynov, Tofiq Şahmurov, Azad Hacıyev, Təbriz Məhərrəmov, Rəfiqə Hüseynova və digərləri kənddə uşaq bağçasının açılması, yeni transformatorun quraşdırılması, ərazidə yeni artezian quyusunun qazılması, məktəb üçün əlavə tədris korpusunun inşa edilməsi, yaşayış məntəqəsinin suvarma suyu ilə təchiz olunması və kənd yolunun yenidən qurulması barədə təkliflər irəli sürmüşlər.

Rayon icra hakimiyyətinin başçısı kənd sakinləri ilə keçirilən səmimi və işgüzar görüşdən məmnunluq duyduğunu bildirmiş, qaldırılan məsələlərin həlli ilə əlaqədar aidiyyəti təşkilatların rəhbərlərinə konkret tapşırıqlar vermişdir.

## Mamaylı kəndi

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin Mamaylı kənd sakinləri ilə növbəti səyyar görüş-qəbulu keçirilib.

Görüşdə RİH-nin məsul işçiləri, rayonun hüquq-mühafizə orqanlarının, əlaqədar xidmət təşkilatlarının rəhbərləri və kənd sakinləri iştirak ediblər. Görüşü Səbuhi Abdullayev açaraq son illərdə Prezident İlham Əliyevin rəhbərliyi altında respublikamızda həyata keçirilən sosial-iqtisadi tədbirlər barədə məlumat verib.

RİH başçısı qeyd edib ki, ölkədə həyata keçirilən uğurlu siyasətin nəticəsidir ki, bu gün Azərbaycanın hər bir bölgəsində, o cümlədən rayonumuzda geniş tikinti-abadlıq işləri aparılır - yeni yollar çəkilir, təhsil, səhiyyə müəssisələri inşa olunur, sosial layihələr həyata keçirilir.

Dövlət rəhbəri tərəfindən aqrar sahəyə xüsusi diqqət yetirildiyini qeyd edən RİH-nin başçısı rayonumuzda və eləcə də Mamaylı kəndində strateji kənd tə-



sərrüfatı məhsulları olan tütünçülüyün və baramaçılığın inkişaf etdirilməsi məsələlərini önə çəkib. Görülən bütün bu işlərin, həyata keçirilən tədbirlərin sonda yalnız bir amala-əhalimizin yaxşı yaşamasına xidmət etdiyini vurğulayan natiq insanlarımızın məşğulluğunun təmin olunmasının, onların sosial rifahının və həyat səviyyəsinin daha da yaxşılaşdırılması üçün stimul verdiyini bildirib.

Səyyar qəbulda iştirak edən kənd sakinləri onlara göstərilən qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Çıxış edən sakinlərdən İkram Əliyev, Bayraməli Bayramov, Elxan Mikayılov, Rafiq Ömərov, Elşən İsayev, Rəhman Mirzəliyev və digərləri kənd məktəbi binasının əsaslı təmir olunmasına, yeni artezian quyusunun qazılmasına, ərazidə elektrik transformatoru-



nun quraşdırılmasına, suvarma kanalının təmizlənməsinə və Hacıalılı-Mamaylı-Bayramkoxalı yolunun asfaltlaşdırılmasına köməklik göstərilməsini xahiş ediblər.

Görüşdə sakinlər tərəfindən verilən təkliflərin və qaldırılan məsələlərin həlli istiqamətində aidiyyəti qurumların rəhbərlərinə tapşırıqlar verilib.

**Varis YAQUBOV,**
**İlkin Vəlizadə (fotolar).**
**"Qəbələ"**